**Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

M a d d ə  1 . **Azərbaycan Respublikası Milli Məclisi komitələrinin təşkili və fəaliyyətinin əsasları**

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi komitələr təşkil edir.

Azərbaycan Respublikası Milli Məclisinin komitələri (bundan sonra – "komitə" adlandırılacaq) qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilmiş qanun və qərar layihələrinin ilkin baxılmasını təşkil etmək, onların Milli Məclisin müzakirəsinə çıxarılmasını təmin etmək və bu Qanunda nəzərdə tutulmuş başqa vəzifələri həyata keçirmək məqsədi ilə fəaliyyət göstərirlər.

komitələrin hüquqları, təşkili qaydası, səlahiyyət müddəti, fəaliyyət prinsipləri, tərkibi, iclaslarının aparılması qaydası, onların sədrlərinin və sədr müavinlərinin səlahiyyətləri "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsi"nin 35 – 39-cu maddələri ilə müəyyən edilir.

M a d d ə  2 . **komitənin funksiyaları**

Komitə aşağıdakı funksiyaları həyata keçirir:

1) Azərbaycan Respublikası Milli Məclisi deputatlarının qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri qanun və qərar layihələrinin ilkin müzakirəsini təşkil edir və Azərbaycan Respublikasının Milli Məclisində baxılmasına dair rəy verir, habelə Azərbaycan Respublikası Milli Məclisi deputatının təşəbbüsü ilə qanun və qərar layihələrini hazırlayır;

Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri qanun və qərar layihələrinin ilkin müzakirəsini təşkil edir və Azərbaycan Respublikasının Milli Məclisində baxılmasına dair rəy verir;

2) Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə ümumxalq müzakirəsinə çıxarılmış qanun layihəsinə dair daxil olmuş təklifləri ümumiləşdirir və Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;

3) birinci və ikinci oxunuşda qəbul edilmiş qanun layihəsi üzərində iş aparır və onu ikinci və üçüncü oxunuşa hazırlayır;

4) Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə daxil olan məsələlərə baxır və bu barədə rəy verir;

5) Azərbaycan Respublikası Milli Məclisinin qanunvericilik işləri planına dair öz təkliflərini verir;

6) ildə iki dəfə – Azərbaycan Respublikası Milli Məclisinin yaz və payız sessiyalarının əvvəlində öz işi barədə hesabat verir.

M a d d ə  3 . **komitənin işinin təşkili**

Komitə Azərbaycan Respublikası Milli Məclisinin növbəti sessiyasının başlanmasına azı bir həftə qalmış növbəti sessiya üçün özünün iş planını təsdiq edir. Komitənin sədri və sədr müavini Azərbaycan Respublikası Milli Məclisinin aparatı ilə birgə komitənin işini təşkil edir, komitə üzvlərini zəruri sənədlər və materiallarla təmin edir. Komitənin sədri komitənin iş planının yerinə yetirilməsinə nəzarət edir.

M a d d ə  4 . **komitə üzvlərinin hüquqları və vəzifələri**

"Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə və "Azərbaycan Respublikası Milli Məclisi deputatlarının statusu haqqında" Azərbaycan Respublikasının qanununda göstərilmiş hüquq və vəzifələrdən başqa komitə üzvlərinin komitənin bütün iclaslarında həlledici səs hüququ vardır. Komitənin üzvü komitənin müzakirə etdiyi bütün məsələlərə dair fikrini bildirə, təkliflərini və qeydlərini verə bilər. Komitənin qəbul etdiyi qərarı ilə razı olmadıqda komitənin üzvü xüsusi rəylə çıxış edə bilər.

M a d d ə  5 . **Komitənin iclasları**

Komitənin iclasları bir qayda olaraq açıq keçirilir. Müstəsna hallarda komitənin qərarı ilə onun qapalı iclasları keçirilə bilər.

Komitənin açıq iclaslarında dəvət olunmuş şəxslər və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edə bilərlər.

Komitənin iclasına qanunvericilik təşəbbüsü qaydasında qanun və qərar layihələrini təqdim etmiş dövlət orqanlarının nümayəndələri, maraqlı icra və məhkəmə hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının nümayəndələri, siyasi partiyaların, həmkarlar ittifaqları birliklərinin, ictimai birliklərin nümayəndələri, alimlər, ekspertlər, mütəxəssislər və iştirakı zəruri hesab olunan başqa şəxslər dəvət oluna bilər. Bu halda komitə dəvət olunan şəxsləri müzakirə olunan sənədlərlə təchiz edir.[2]

M a d d ə  6 . **komitənin qəbul etdiyi aktlar**

Komitə müzakirə etdiyi məsələlərə dair qərarlar və rəylər qəbul edir.

Komitə özü hazırladığı qanun və qərar layihələrinə dair qərarlar, komitəyə təqdim olunmuş qanun və qərar layihələrinə dair işə rəylər qəbul edir.

Komitə öz işi barədə hesabatlar hazırlayır. Komitənin hesabatı komitənin qərarı ilə qəbul edilir.

Komitənin qərarları və rəyləri komitənin tərkibinə daxil olan üzvlərin yarısından çoxu qərar və ya rəyin lehinə səs verdikdə qəbul edilmiş sayılır.

M a d d ə  7 . **Azərbaycan Respublikası Milli Məclisinin komitələri**[3]

*Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı komitələri yaradır:*

*Hüquq siyasəti və dövlət quruculuğu komitəsi;*

*Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi;*
*İnsan hüquqları komitəsi;*
*Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi;*
*İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi;*
*Aqrar siyasət komitəsi;*
*Əmək və sosial siyasət komitəsi;*
*Səhiyyə komitəsi;*
*Ailə, qadın və uşaq məsələləri komitəsi;*
*Gənclər və idman komitəsi;*
*İctimai birliklər və dini qurumlar komitəsi;*
*Regional məsələlər komitəsi;*
*Elm və təhsil komitəsi;*
*Mədəniyyət komitəsi;*
*Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi.*

Azərbaycan Respublikasının Milli Məclisi zəruri hallarda yeni komitələr yarada bilər, yaxud fəaliyyət göstərən komitələri yenidən təşkil edə və ya ləğv edə bilər.

### M a d d ə 8 . **Hüquq siyasəti və dövlət quruculuğu ~~məsələləri~~ komitəsi**

Hüquq siyasəti və dövlət quruculuğu komitəsi dövlətin hüquqi siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair, habelə dövlət quruculuğuna aid qanun və qərar layihələri üzrə aparıcı komitədir.

Hüquq siyasəti və dövlət quruculuğu ~~məsələləri~~ komitəsi:

dövlət quruculuğu, seçki hüququ, vətəndaşlıq, məhkəmə quruluşu, mülki hüquq, mülki-prosessual hüquq, cinayət hüququ, cinayət-prosessual hüquq, cinayət-icra hüququ, inzibati hüquqpozmalar, vəkillik, notariat, prokurorluq, polis ~~, müdafiə, təhlükəsizlik~~ *ilə bağlı* qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;[4]

*Azərbaycan Respublikası Milli Məclisinin İnsan hüquqları komitəsi ilə birlikdə insan alverinə qarşı mübarizəyə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin İnsan hüquqları komitəsi ilə birlikdə İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumatına baxır və rəy verir;*[5]

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrinin Azərbaycan Respublikasının Konstitusiyasına və başqa qanunlarına uyğunluğu haqqında rəy verir;

Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi, Azərbaycan Respublikası apellyasiya məhkəmələri hakimlərinin, habelə Azərbaycan Respublikası baş prokurorunun namizədliklərinə baxır və onlar barəsində rəy verir, habelə Azərbaycan Respublikası məhkəmələri hakimlərinin vəzifədən kənarlaşdırılması barədə məsələlərə baxır və rəy verir.[6]

Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər olunması haqqında referendum təyin edilməsi barədə məsələ, habelə Konstitusiya qanunları

Azərbaycan Respublikası Milli Məclisinə çıxarıldıqda Hüquq siyasəti və dövlət quruculuğu ~~məsələləri~~ komitəsi bu haqda rəy verməlidir.

M a d d ə 9 . **Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi**[7]

*Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi ölkənin müdafiəsi və dövlət təhlükəsizliyi, habelə korrupsiya ilə mübarizə sahəsində* qanun və qərar layihələri üzrə aparıcı komitədir.[8]

*Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi:*[9]

*fövqəladə vəziyyət rejimi, hərbi vəziyyət rejimi, müdafiə, səfərbərlik, hərbi vəzifə, hərbi xidmətkeçmə, hərbi qulluqçuların statusu və digər məsələlər, dövlət təhlükəsizliyinin əsasları, onun təmin edilməsi üsulları və vasitələri, dövlət sərhəd rejimi, korrupsiyaya qarşı mübarizə ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

Azərbaycan Respublikası Prezidentinin təqdimatlarına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqinə, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsinə, Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsinə dair qərar layihələrinə rəy verir;

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrinə *ölkənin müdafiəsi və dövlət təhlükəsizliyi, habelə korrupsiya ilə mübarizə* baxımından rəy verir.[10]

*Maddə 10.* ***İnsan hüquqları komitəsi***[11]

*İnsan hüquqları komitəsi insan hüquqları və azadlıqlarının təmin olunması və qorunması sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*İnsan hüquqları komitəsi:*

*insan hüquqları və azadlıqlarının təmin olunması və qorunmasına, milli və dini azlıqların statusunun müəyyən edilməsi və hüquqlarının təmin olunmasına, qaçqınların və məcburi köçkünlərin, miqrantların statusunun müəyyən edilməsi və hüquqlarının qorunmasına dair qanun layihələrini hazırlayır, Milli Məclisin müzakirəsinə tövsiyə olunan və insan hüquqları və azadlıqlarına toxunan bütün qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə birlikdə insan alverinə qarşı mübarizəyə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsi ilə birlikdə kütləvi informasiya vasitələri ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrinə insan hüquqları və azadlıqlarının təmin edilməsi baxımından rəy verir;*

*Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) seçilmək üçün Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi şəxslərin namizədliklərinə baxır və onlar barəsində rəy verir, habelə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin*

*(ombudsmanın) səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə məsələyə baxır və rəy verir;*

*Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsinə baxır və rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə birlikdə İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumatına baxır və rəy verir;*

*Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası məhkəmələri hakimlərinin vəzifədən kənarlaşdırılması barədə məsələlərə baxır və rəy verir;*

*Azərbaycan Respublikası Hesablama Palatasının sədri, sədr müavini və auditorlarının, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavininin vəzifədən azad edilməsi barədə məsələyə baxır və bu barədə rəy verir.*

### *Maddə 11.* ***Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi***

*Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi təbiətin mühafizəsi, təbii ehtiyatlar və energetika sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi:*

*ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan və enerji resurslarından istifadə, neft, qaz, energetika, su, meşə təsərrüfatı, ovçuluq və balıqçılıq məsələləri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrinə ekoloji təhlükəsizlik baxımından rəy verir.*

### *Maddə 12.* ***İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi***

*İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi dövlətin iqtisadi siyasətinin, sənaye və sahibkarlıq fəaliyyəti sahəsində siyasətinin formalaşdırılması və həyata keçirilməsi, dövlət büdcəsinin təsdiq edilməsi və icrası ilə bağlı qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi:*

*iqtisadiyyatın dövlət tənzimlənməsi, sənaye, investisiya fəaliyyəti, sahibkarlıq fəaliyyətinin, o cümlədən kiçik və orta sahibkarlığın inkişafı, dövlət-özəl tərəfdaşlığı, iqtisadi təhlükəsizlik, xüsusi iqtisadi zonalar, innovativ inkişaf, o cümlədən innovativ mərkəzlərin, texnoparkların, sənaye parklarının təşkili və fəaliyyəti ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*dövlət büdcəsi, büdcə prosesi və quruluşu, pul-kredit, vergi, qiymət siyasətinin əsasları, bank fəaliyyəti, maliyyə, mühasibat, sığorta, valyuta, gömrük tənzimlənməsi, xarici iqtisadi fəaliyyət, mülkiyyət, əmlak münasibətləri, təsərrüfat fəaliyyəti, sənaye, nəqliyyat, rabitə, ticarət, qiymətli kağızlar bazarı, antiinhisar siyasəti, statistika, metrologiya və standartlar, istehlakçıların hüquqlarının qorunması ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər komitəsi ilə birlikdə yerli vergilərə və ödənişlərə, yerli büdcələrə aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş layihələrə dair rəy verir;*

*Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvləri vəzifəyə təyin və vəzifədən azad edilərkən təklif olunan namizədliklərə baxır və onlar barəsində rəy verir;*

*Azərbaycan Respublikası Hesablama Palatasının sədri, sədr müavini və auditorlar, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavini vəzifəyə təyin edildikdə və ya vəzifədən azad edildikdə təklif olunmuş şəxslərin namizədliklərinə baxır və onlar barəsində rəy verir;*

*dövlət büdcəsinə nəzarətlə bağlı məsələlərə baxır və Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verir;*

*dövlət büdcəsinin layihəsinə dair Milli Məclisin digər komitələrinin təkliflərinə baxır və onlar barəsində rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə dövlət büdcəsindən əlavə xərc tələb edən qanun və qərar layihələrinə dair, habelə qanun və qərar layihələrinə iqtisadi əsaslandırma və iqtisadi məqsədəuyğunluq baxımından rəy verir.*

### *Maddə 13.* ***Aqrar siyasət komitəsi***

*Aqrar siyasət komitəsi dövlətin aqrar siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Aqrar siyasət komitəsi:*

*aqrar sahədə mülkiyyət və sahibkarlıq münasibətlərinin dövlət tənzimləməsi, kəndin təbii potensialı olan torpaq, su, meşə resurslarının, habelə mövcud genofondun mühafizəsi və onun səmərəli istifadəsi, kənddə əhalinin layiqli həyatı və fəaliyyəti üçün müvafiq mühitin yaradılması, aqrar bazarın tənzimlənməsi, aqrar sektorun maliyyələşdirilməsi və bu sahəyə xarici investisiyaların cəlb edilməsi, aqrar sahədə kredit siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, istehsal və sosial infrastrukturun inkişafı, yerli, sahə, sahələrarası və regional kənd təsərrüfatı kooperasiyasının formalaşması və inkişafı, aqrar elminin və təhsilin inkişafına dair qanun layihələri hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*torpaq mülkiyyəti və torpaq münasibətləri ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində aqrar məsələlərə dair rəy verir.*

### *Maddə 14.* ***Əmək və sosial siyasət komitəsi***

*Əmək və sosial siyasət komitəsi dövlətin əmək və sosial siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Əmək və sosial siyasət komitəsi:*

*sosial inkişaf, əmək, məşğulluq, insanların, o cümlədən sosial müdafiəyə ehtiyacı olan şəxslərin (qaçqın və məcburi köçkünlərin, əlillərin, valideyn himayəsindən məhrum olmuş uşaqların və s.) sosial problemləri, sosial təminat, sosial sığorta sahələri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsi ilə birlikdə turizm sahəsi üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində əmək və sosial müdafiə məsələlərinə dair rəy verir.*

*Maddə 15.* ***Səhiyyə komitəsi***

*Səhiyyə komitəsi səhiyyə sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Səhiyyə komitəsi:*

*sağlamlığın mühafizəsi, əhalinin sanitariya-epidemioloji salamatlığı, dərman vasitələri, əczaçılıq, ictimai təhlükəli xəstəliklərlə mübarizə, tibbi sığorta, tibb fəaliyyəti üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində səhiyyə ilə bağlı məsələlərə dair rəy verir.*

*Maddə 16.* ***Ailə, qadın və uşaq məsələləri komitəsi***

*Ailə, qadın və uşaq məsələləri komitəsi ailə, qadın və uşaq məsələləri üzrə dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Ailə, qadın və uşaq məsələləri komitəsi:*

*ailə münasibətləri, o cümlədən himayəçilik və qəyyumluq, qadın və uşaq hüquqlarının müdafiəsi və həyata keçirilməsi, gender (kişi və qadınların) bərabərliyinin təmin edilməsi, məişət zorakılığı ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində ailə, qadın və uşaq məsələlərinə dair rəy verir.*

*Maddə 17.* ***Gənclər və idman komitəsi***

*Gənclər və idman komitəsi gənclər və idman sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Gənclər və idman komitəsi:*

*gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi, gənclərin təhsil, sosial və məişət problemləri, gənclər evləri və mərkəzləri, gənclərin asudə vaxtının təşkili, gənclər və idman təşkilatları, idmanın təşviqi və təbliği, bədən tərbiyəsi, milli idman növlərinin təşviqi və mühafizəsi, idman kompleksləri və qurğuları, idman klubları, idman mərc oyunları, idmanda dopinqə qarşı mübarizə ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində gənclər və idman məsələlərinə dair rəy verir.*

*Maddə 18.* ***İctimai birliklər və dini qurumlar komitəsi***

*İctimai birliklər və dini qurumlar komitəsi ictimai birliklər və dini qurumlarla bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*İctimai birliklər və dini qurumlar komitəsi:*

*qeyri-hökumət təşkilatlarının (ictimai birliklərin və fondların), siyasi partiyaların, həmkarlar ittifaqlarının, dini qurumların, o cümlədən dini mərkəz və idarələrin, dini təhsil müəssisələrinin və dini icmaların statusu, təşkili və fəaliyyətinə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində ictimai birliklərlə və dini qurumlarla bağlı məsələlərə dair rəy verir.*

*Maddə 18-1.* ***Regional məsələlər komitəsi***[12]

*Regional məsələlər komitəsi yerli özünüidarə ilə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Regional məsələlər komitəsi:*

*ərazi quruluşu və inzibati ərazi bölgüsü, ərazi vahidlərinin qeydə alınması və qeydiyyatdan çıxarılması, statusunun və sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi, onlara ad verilməsi və adlarının dəyişdirilməsi, ərazi vahidlərinin Dövlət reyestrinin aparılması ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir, habelə Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının fəaliyyətinə dair qərar layihələrini hazırlayır;*

*bələdiyyələrə seçkilər, bələdiyyələrin statusu, onların birləşməsi, ayrılması və ləğv edilməsi, bələdiyyələrin fəaliyyətinin təşkili, bələdiyyələrin maliyyəsinin əsasları, bələdiyyə qulluğu, bələdiyyələrin Dövlət reyestrinin aparılması məsələlərinə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunmuş bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın öz fəaliyyəti haqqında illik məruzəsinə, bələdiyyələrin öz fəaliyyətləri barəsində hesabatlarına, bələdiyyələrin vaxtından əvvəl buraxılması ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müraciətlərinə baxır və rəy verir;*

*bələdiyyə mülkiyyəti, yerli vergilər və ödənişlər, yerli büdcə, yerli sosial müdafiə və sosial inkişaf, yerli iqtisadi inkişaf, yerli ekoloji proqramları ilə bağlı qanun layihələrini Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komitələri ilə birlikdə hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində yerli özünüidarə məsələlərinə dair rəy verir.*

*Maddə 18-2.* ***Elm və təhsil komitəsi***

*Elm və təhsil komitəsi elm və təhsil sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Elm və təhsil komitəsi:*

*elm, texnika, təhsil, peşə hazırlığı, ixtiraçılıq və patent hüququ, informatika və informasiyanın mühafizəsi sahələrinə aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində elm və təhsil sahələrinə aid məsələlərə dair rəy verir.*

*Maddə 18-3.* ***Mədəniyyət komitəsi***

*Mədəniyyət komitəsi mədəniyyət və mədəni sərvətlərin mühafizəsi sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Mədəniyyət komitəsi:*

*mədəniyyət, o cümlədən dil, ədəbiyyat, incəsənət, muzey, teatr, kino, dizayn, memarlıq, şəhərsalma, kitabxanaçılıq, arxiv işi, habelə mədəni sərvətlərin mühafizəsi sahələrinə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin Əmək və sosial siyasət komitəsi ilə birlikdə turizmlə bağlı, İnsan hüquqları komitəsi ilə birlikdə kütləvi informasiya vasitələri ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində mədəniyyət məsələlərinə dair rəy verir.*

*Maddə 18-4.* ***Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi***

*Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Azərbaycan Respublikasının xarici siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.*

*Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi:*

*xarici siyasətə, beynəlxalq müqavilələrin təsdiqi, icrası və ləğv edilməsinin qaydalarına, repatriasiyaya, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusuna aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;*

*Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi, habelə dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi məsələlərinə baxır və bu barədə rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sənədlərə uyğunluğu barədə rəy verir;*

*Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələrinin daha da inkişaf etdirilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verir;*

*xaricdə yaşayan azərbaycanlılarla və onların təşkilatları ilə əlaqələr saxlayır və bu əlaqələri inkişaf etdirir;*

*Azərbaycan Respublikası Milli Məclisinin xarici dövlətlərin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarına, habelə Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq parlament təşkilatlarında nümayəndələrinə metodik yardım göstərir.*

M a d d ə  1 9 . **komitələrin qarşılıqlı fəaliyyəti**

Əlaqədar qanun və qərar layihələri hazırlanarkən və ya müzakirə olunarkən komitələr birgə iclaslar keçirə və ya başqa formalarda birgə fəaliyyət göstərə bilərlər.

M a d d ə  2 0 . **komitələrin iclaslarının protokolları və stenoqramları**

Komitənin iclası stenoqrama alınır və protokollaşdırılır:

komitələrin iclasının protokolu və stenoqramı müvafiq sənədlərin müzakirəsini və onlar barədə qərar qəbul edilməsini təsdiq edən rəsmi sənədlərdir.

Komitənin iclasının protokolunda aşağıdakılar göstərilir:

1) iclasın keçirilməsi yeri, vaxtı, protokolun nömrəsi;

2) iclasda sədrlik və iştirak edən komitə üzvlərinin, habelə dəvət olunmuş şəxslərin adı, soyadı;

3) iclasın gündəliyi;

4) iclasda yayılan sənədlər;

5) gündəlik üzrə çıxış edənlər;

6) gündəlikdə duran məsələlər üzrə səsvermənin nəticələri;

7) qəbul olunmuş akt.

Komitə üzvünün xüsusi rəyi varsa, həmin xüsusi rəy haqqında məlumat protokolda göstərilir, xüsusi rəy isə stenoqrama əlavə edilir.

Komitənin protokolunu iclasda sədrlik edən imzalayır.

M a d d ə  2 1 . **komitələrin fəaliyyətinin işıqlandırılması**

komitələrin fəaliyyəti kütləvi informasiya vasitələrində işıqlandırılır.

komitələrin iclasları haqqında məlumatlar "Azərbaycan" qəzetində dərc edilir.

komitənin iclasında audio, video yazısı, foto və kino çəkilişi komitənin razılığı ilə həyata keçirilə bilər.

M a d d ə  2 2 . **komitələrin fəaliyyətinin təmin edilməsi**

komitələrin təşkilati, analitik, informasiya, kargüzarlıq, maddi-texniki təminatını Azərbaycan Respublikası Milli Məclisinin Aparatı həyata keçirir.

M a d d ə  2 3 . **komitələrin ekspertləri**

komitədə qanun və qərar layihələrinin hazırlanmasında və ya onlara rəy verilməsində mütəxəssislərin cəlb edilməsi məqsədilə, habelə komitəyə daxil olan materialların təhlilinə və ümumiləşdirilməsinə kömək etmək üçün komitə ekspertlərindən istifadə edə bilər. Ekspert komitədə əmək haqqı ödənilməklə və ya ictimai əsaslarla işləyə bilər. Azərbaycan Respublikası Milli Məclisi sədrinin razılığı və komitə sədrinin təqdimatı ilə əmək haqqı ödənilməklə müəyyən müddətə işə götürülən ekspertlə Azərbaycan Respublikası Milli Məclisinin Aparatı əmək sazişi bağlayır.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 10 iyul 1998-ci il
№ 521-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 1 dekabr 2000-ci il tarixli 8-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 12, maddə 833**)
2. 1 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu (“**Azərbaycan” qəzeti, 25 oktyabr 2005-ci il** )
3. 17 aprel 2007-ci il tarixli 316-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 437**)
4. 14 aprel 2009-cu il tarixli 785-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti 2 iyul 2009-cu il, № 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 395)**
5. 5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 aprel 2010-cu il, № 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 04, maddə 276)**
6. 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 18 fevral 2011-ci il, № 38, “Azərbaycan” qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)**
7. 18 dekabr 2015-ci il tarixli **70-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 15 yanvar 2016-cı il, № 09, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 34)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 14 aprel 2009-cu il tarixli 785-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti 2 iyul 2009-cu il, № 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 395)** ilə Qanunun adında və mətnində ismin müvafiq hallarında "**daimi komissiyalar**" sözləri ismin müvafiq hallarında "**komitələr**" sözü ilə, Qanunun mətnində ismin müvafiq hallarında "**daimi komissiya**" və "**komissiya**" sözləri ismin müvafiq hallarında "**komitə**" sözü ilə, ismin müvafiq hallarında "**daimi komissiyası**" sözləri ismin müvafiq hallarında "**komitəsi**" sözü ilə əvəz edilmişdir.

[2] 17 aprel 2007-ci il tarixli **316-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 437**) ilə 5-ci maddəsinin 3-cü hissəsində “**həmkarlar ittifaqları təşkilatlarının**” sözləri “**həmkarlar ittifaqları birliklərinin**” sözləri ilə əvəz edilmişdir.

[3] 1 dekabr 2000-ci il tarixli 8-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 12, maddə 833**) ilə 7-ci maddədə **“Büdcə məsələləri daimi komissiyası**” sözləri “**Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyası**” sözləri ilə əvəz edilmişdir.

1 dekabr 2000-ci il tarixli 8-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 12, maddə 833**) ilə 7-ci maddədə **“Yerli özünüidarə məsələləri daimi komissiyası”** sözləri, “**Regional məsələlər daimi komissiyası**” sözləri ilə əvəz edilmişdir.

18 dekabr 2015-ci il tarixli **70-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 15 yanvar 2016-cı il, № 09, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 34)** ilə 7-ci maddənin birinci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı komitələri yaradır:~~

Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsi;
Təhlükəsizlik və müdafiə məsələləri komitəsi;
İqtisadi siyasət komitəsi;
Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri komitəsi;
Aqrar siyasəti komitəsi;
Sosial siyasət komitəsi;
Regional məsələlər komitəsi;
Elm və təhsil məsələləri komitəsi;
Mədəniyyət məsələləri komitəsi;
İnsan hüquqları komitəsi;
Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi.

[4] 1 dekabr 2000-ci il tarixli 8-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 12, maddə 833**) ilə 8-ci maddənin ikinci hissəsinin birinci bəndindən **"inzibati ərazi quruluşu"** sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

dövlət quruculuğu, seçki hüququ, inzibati-ərazi quruluşu, vətəndaşlıq, məhkəmə quruluşu, mülki hüquq, mülki-prosessual hüquq, cinayət hüququ, cinayət-prosessual hüquq, cinayət-icra hüququ, inzibati hüquqpozmalar, vəkillik, notariat, prokurorluq, polis, müdafiə, təhlükəsizlik sahələri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

[5] 18 dekabr 2015-ci il tarixli **70-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 15 yanvar 2016-cı il, № 09, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 34)** ilə 8-ci maddənin ikinci hissəsinin ikinci abzasından "**, müdafiə, təhlükəsizlik**" sözləri çıxarılmışdır, "**sahələri üzrə**" sözləri "**ilə bağlı**" sözləri ilə əvəz edilmişdir və hissəyə yeni məzmunda üçüncü və dördüncü abzaslar əlavə edilmişdir.

[6] 1 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 10, maddə 876**) ilə 8-ci maddənin ikinci hissəsinin dördüncü abzasında "**İqtisad Məhkəməsi**" sözləri "**apellyasiya məhkəmələri**" sözləri ilə əvəz edilmişdir.

[7] 1 dekabr 2000-ci il tarixli 8-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 12, maddə 833**) ilə 9-cu maddə yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

M a d d ə 9 . **Büdcə məsələləri daimi komissiyası**

Büdcə məsələləri daimi komissiyası dövlətin maliyyə və vergi siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair, habelə dövlət büdcəsinin təsdiq edilməsi və icrası ilə bağlı qanun və qərar layihələri üzrə aparıcı daimi komissiyadır.

Büdcə məsələləri daimi komissiyası:

dövlət büdcəsi, büdcə prosesi və quruluşu, pul emissiyası, qiymət siyasətinin əsasları, bank fəaliyyəti, maliyyə, mühasibat, sığorta, valyuta, kredit, gömrük tənzimlənməsi, vergi siyasəti, rüsum və ödənişlər sahələri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

yerli vergilərə və ödənişlərə, yerli büdcələrə aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin üzvləri vəzifəyə təyin və vəzifədən azad edilərkən təklif olunan namizədliklərə baxır və onlar barəsində rəy verir;

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavini, Azərbaycan Respublikası Hesablama Palatasının sədri, sədr müavini və auditorları vəzifəyə təyin edildikdə və ya vəzifədən azad edildikdə təklif olunmuş şəxslərin namizədliklərinə baxır və onlar barəsində rəy verir;

~~Dövlət büdcəsinə nəzarətlə bağlı məsələlərə baxır və Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verir;~~

~~dövlət büdcəsinin layihəsinə dair başqa daimi komissiyaların təkliflərinə baxır və onlar barəsində rəy verir;~~

~~Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə dövlət büdcəsindən əlavə xərc tələb edən qanun və qərar layihələrinə dair rəy verir.~~

18 dekabr 2015-ci il tarixli **70-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 15 yanvar 2016-cı il, № 09, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 34)** ilə 9-cu maddənin adı yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Təhlükəsizlik və müdafiə məsələləri komitəsi~~

[8] 18 dekabr 2015-ci il tarixli **70-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 15 yanvar 2016-cı il, № 09, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 34)** ilə 9-cu maddənin birinci hissəsində "**Təhlükəsizlik və müdafiə komitəsi dövlətin təhlükəsizlik və müdafiə məsələlərinə dair**" sözləri "**Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi ölkənin müdafiəsi və dövlət təhlükəsizliyi, habelə korrupsiya ilə mübarizə sahəsində**" sözləri ilə əvəz edilmişdir.

[9] 18 dekabr 2015-ci il tarixli **70-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 15 yanvar 2016-cı il, № 09, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 34)** ilə 9-cu maddənin ikinci hissəsinin birinci və ikinci abzasları yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Təhlükəsizlik və müdafiə məsələləri komitəsi:~~

~~fövqəladə vəziyyət rejimi və hərbi vəziyyət rejimi, müdafiə, hərbi qulluq, hərbi xidmətə çağırış, hərbi xidmət keçmə, hərbi qulluqçuların statusu və digər məsələləri, dövlət təhlükəsizliyinin əsasları, onun təmin etmə üsul və vasitələri, dövlət sərhəd rejiminə aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;~~

[10] 18 dekabr 2015-ci il tarixli **70-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 15 yanvar 2016-cı il, № 09, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 34)** ilə 9-cu maddənin dördüncü hissəsində "**təhlükəsizlik və müdafiə məsələləri**" sözləri "**ölkənin müdafiəsi və dövlət təhlükəsizliyi, habelə korrupsiya ilə mübarizə**" sözləri ilə əvəz edilmişdir.

[11] 18 dekabr 2015-ci il tarixli **70-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 15 yanvar 2016-cı il, № 09, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 34)** ilə 10-18-ci maddələr yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 1 0 . **İqtisad siyasəti komitəsi**~~ [11]

~~İqtisadi siyasət komitəsi dövlətin maliyyə və vergi siyasətinin, iqtisadi siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair, habelə dövlət büdcəsinin təsdiq edilməsi və icrası ilə bağlı qanun və qərar layihələri üzrə aparıcı komitədir.~~

~~İqtisadi siyasət komitəsi:~~

~~dövlət büdcəsi, büdcə prosesi və quruluşu, pul emissiyası, qiymət siyasətinin əsasları, bank fəaliyyəti, maliyyə, mühasibat, sığorta, valyuta, kredit, gömrük tənzimlənməsi, vergi siyasəti, rüsum və ödənişlər sahələri, daxili və xarici iqtisadi münasibətlər, mülkiyyət, əmlak münasibətləri, təsərrüfat fəaliyyəti, sənaye, nəqliyyat, rabitə, ticarət, birja, sahibkarlıq fəaliyyəti, antiinhisar siyasəti sahələri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;~~

~~yerli vergilərə və ödənişlərə, yerli büdcələrə aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;~~

Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvləri vəzifəyə təyin və vəzifədən azad edilərkən təklif olunan namizədliklərə baxır və onlar barəsində rəy verir;[11]

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavini, Azərbaycan Respublikası Hesablama Palatasının sədri, sədr müavini və auditorlar vəzifəyə təyin edildikdə və ya vəzifədən azad edildikdə təklif olunmuş şəxslərin namizədliklərinə baxır və onlar barəsində rəy verir;

Dövlət büdcəsinə nəzarətlə bağlı məsələlərə baxır və Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verir;

dövlət büdcəsinin layihəsinə dair başqa komitələrin təkliflərinə baxır və onlar barəsində rəy verir;

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə dövlət büdcəsindən əlavə xərc tələb edən qanun və qərar layihələrinə dair, habelə qanun və qərar layihələrinə iqtisadi əsaslandırma və iqtisadi məqsədəuyğunluq baxımından rəy verir».

M a d d ə 1 1 . **Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri komitəsi**

Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri komitəsi təbiətin mühafizəsi, təbii ehtiyatlar və energetika sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.

Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri komitəsi:

ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan və enerji resurslarından istifadə, neft, qaz, energetika, su, meşə təsərrüfatı, ovçuluq və balıqçılıq məsələləri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrinə ekoloji təhlükəsizlik baxımından rəy verir.

M a d d ə 1 2 . **Aqrar siyasəti komitəsi**

Aqrar siyasəti komitəsi dövlətin aqrar siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.

Aqrar siyasəti komitəsi:

aqrar sahədə mülkiyyət və sahibkarlıq münasibətlərinin dövlət tənzimləməsi, kəndin təbii potensialı olan torpaq, su, meşə resurslarının, habelə mövcud genofondun mühafizəsi və onun səmərəli istifadəsi, kənddə əhalinin layiqli həyatı və fəaliyyəti üçün müvafiq mühitin yaradılması, aqrar bazarın tənzimlənməsi, aqrar sektorun maliyyələşdirilməsi və buraya xarici investisiyaların cəlb edilməsi, aqrar sahədə kredit siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, istehsal və sosial infrastrukturun inkişafı, yerli, sahə, sahələrarası və regional özünüidarə institutlarının formalaşması və inkişafı, aqrar elminin və təhsilin inkişafına dair qanun layihələri hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

torpaq mülkiyyəti ilə və torpaq münasibətləri ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində aqrar məsələlərə dair rəy verir.

M a d d ə 1 3 . **Sosial siyasət komitəsi**

Sosial siyasət komitəsi dövlətin sosial siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.

Sosial siyasət komitəsi:

sosial inkişaf, əmək, məşğulluq, insanların, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial problemləri, ailə, qadın və uşaq məsələləri, gənclər, bədən tərbiyəsi və idman, turizm, səhiyyə, sanitariya, sosial təminat və sığorta sahələri üzrə, sağlamlığın mühafizəsi sahəsində dövlət siyasətinin formalaşdırılmasına aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində sosial müdafiə məsələlərə dair rəy verir.

M a d d ə 1 4 . **Regional məsələlər komitəsi**[11]

Regional məsələlər komitəsi yerli özünüidarə orqanları ilə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.

Regional məsələlər komitəsi:

inzibati ərazi quruluşu, yerli özünüidarə orqanlarının seçkiləri, statusu, işinin təşkili məsələlərinə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;[11]

bələdiyyə mülkiyyəti, yerli vergilər və ödənişlər, yerli büdcə, yerli sosial müdafiə və sosial inkişaf proqramları, yerli iqtisadi inkişaf proqramları, yerli ekoloji proqramları ilə bağlı qanun layihələrini bu sahələr üzrə başqa aparıcı komitələrlə birlikdə hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində yerli özünüidarə məsələlərinə dair rəy verir;

bələdiyyə orqanlarının işinin təşkilinə və təkmilləşdirilməsinə, bələdiyyə işçilərinin əlavə təhsilinə kömək göstərmək məqsədi ilə metodik tövsiyələr hazırlayır və dərc edir.[11]

M a d d ə 1 5 . **Elm və təhsil məsələləri komitəsi**

Elm və təhsil məsələləri komitəsi elm və təhsil sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.

Elm və təhsil məsələləri komitəsi:

elm, texnika, təhsil, peşə hazırlığı, ixtiraçılıq və patent hüququ, informatika və informasiyanın mühafizəsi sahələrinə aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

dil, din, kütləvi informasiya sahələri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində elm və təhsil sahələrinə aid məsələlərə dair rəy verir.

M a d d ə 1 6 . **Mədəniyyət məsələləri komitəsi**[11]

Mədəniyyət məsələləri komitəsi mədəniyyət və mədəni sərvətlərin mühafizəsi sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.

Mədəniyyət məsələləri komitəsi:

mədəniyyət, o cümlədən dil, ədəbiyyat, incəsənət, muzey, teatr, kino, dizayn, memarlıq, şəhərsalma, kitabxanaçılıq, arxiv işi, habelə mədəni sərvətlərin mühafizəsi sahələrinə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

dil, din, kütləvi informasiya sahələri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində mədəniyyət məsələlərinə dair rəy verir.

M a d d ə 1 7 . **İnsan hüquqları komitəsi**

İnsan hüquqları komitəsi insan hüquqları və azadlıqlarının təmin olunması və qorunması sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.

İnsan hüquqları komitəsi:

insan hüquqları və azadlıqlarının təmin olunması və qorunmasına, milli azlıqların statusunun müəyyən edilməsi və hüquqlarının təmin olunmasına, qaçqınların və məcburi köçkünlərin statusunun müəyyən edilməsi və hüquqlarının qorunmasına dair qanun layihələrini hazırlayır, Milli Məclisin müzakirəsinə tövsiyə olunan və insan hüquqları və azadlıqlarına toxunan bütün qanun layihələrinə dair rəy verir.

Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrinə insan hüquqları və azadlıqlarının təmin edilməsi baxımından rəy verir;

Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası məhkəmələri hakimlərinin vəzifədən kənarlaşdırılması barədə məsələlərə baxır və rəy verir;

Azərbaycan Respublikası Hesablama Palatasının sədri, sədr müavini və auditorları, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavini vəzifədən azad edilməsi barədə məsələyə baxır və bu barədə rəy verir.

~~M a d d ə 1 8 . **Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi**~~

~~Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Azərbaycan Respublikasının xarici siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.~~

~~Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi:~~

~~xarici siyasətə, beynəlxalq və dövlətlərarası müqavilələrin təsdiqi, icrası və ləğv edilməsinin qaydalarına, repatriasiyaya, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusuna aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;~~

~~Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi, habelə dövlətlərarası beynəlxalq müqavilələrin təsdiq və ləğv edilməsi məsələlərinə baxır və bu barədə rəy verir;~~

~~Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələrinin daha da inkişaf etdirilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verir;~~

~~Azərbaycan Respublikasından kənarda yaşayan soydaşlarla, xaricdəki fəaliyyət göstərən Azərbaycan təşkilatları ilə əlaqələr saxlayır və bu əlaqələri inkişaf etdirir;~~

~~Azərbaycan Respublikası Milli Məclisinin xarici dövlətlərin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarına, habelə Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq parlament təşkilatlarında nümayəndələrinə metodik yardım göstərir;~~

~~Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrinin Azərbaycan Respublikasının qoşulduğu və ya təsdiq etdiyi beynəlxalq sənədlərə uyğunluğu barədə rəy verir.~~

[12] 18 dekabr 2015-ci il tarixli **70-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 15 yanvar 2016-cı il, № 09, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 34)** ilə yeni məzmunda 18-1, 18-2, 18-3 və 18-4-cü maddələr əlavə edilmişdir.